# Azərbaycanda simfonik musiqinin banilərindən biri: Soltan Hacıbəyov

**Qarabag.com Azərbaycan musiqisinin inkişafında böyük rol oynamış görkəmli şəxsiyyətlərdən biri, əslən Qarabağdan olan böyük bəstəkar Üzeyir Hacıbəyovun qardaşı oğlu haqqında materialı təqdim edir.**



Bəstəkar, pedaqoq, ictimai xadim Soltan Hacıbəyov 8 may 1919-cu ildə Şuşa şəhərində anadan olmuşdur.

[D. X. Danilov.Soltan Hacıbəyov. 1956-cı il., səh.5]

1930-cu ilin payızında Soltan Hacıbəyov Şuşadan Bakıya köçdü, burada əvvəlcə öz bacısının yanında, 1936-cı ildən isə onun tərbiyəsində böyük rol oynamış – Azərbaycan bəstəkarı, öz əmisi Üzeyir Hacıbəyovun yanında yaşamışdır.

[D. X. Danilov. Soltan Hacıbəyov. 1956-cı il., səh. 6]

[E. Abbasova. Soltan Hacıbəyov.1965-cı il., səh. 6]

Orta məktəbi bitirdikdən sonra Soltan Hacıbəyov Bakı Musiqi Məktəbinə daxil olmuşdur.

[D. H. Danilov.Soltan Hacıbəyov. 1956-cı il., səh. 6]

1938-1940-cı illərdə Hacıbəyov Bakı Musiqili Komediya Teatrının dirijoru, 1940-1942-ci illərdə isə qadınlardan ibarət sazçılar ansamblının bədii rəhbəri olmuşdur. Hacıbəyovun ilk əsəri, ona böyük şöhrət gətirmiş "Qızıl gül" operettası olmuşdur (1940).

[D. X. Danilov.Soltan Hacıbəyov. 1956-cı il., səh. 12]

[Musiqi ensiklopediyası. 1-xi cild. 1973-cü il., səh. 871]

1939-1946-cı illərdə Hacıbəyov Azərbaycan Konservatoriyasının bəstəkarlıq şöbəsində təhsil almışdır.

[D. X. Danilov. Soltan Hacıbəyov. 1956-cı il., səh. 6]

[Musiqi ensiklopediyası. 1-ci cild. 1973-cü il., səh. 871]

1944-cü ildə Soltan Hacıbəyov İkinci Dünya müharibəsinə həsr olunmuş 1-ci simfoniyanı (1939-1945) yazmışdır. Bu əsər Azərbaycanın klassik musiqisi tarixində ilk simfoniyalardan biridir.

["Karvan" və Soltan Hacıbəyovun uvertürası. Aydınlaşdırna.1964-cü il, səh. 9]

[E. Abbasova. Soltan Hacıbəyov. 1965-ci il., səh. 5]

[Azərbaycan Sovet Ensiklopediyası. X cild. 1987-ci il., səh. 147]

Rus bəstəkarı Reinqold Qliyer Soltan Hacıbəyovu belə qiymətləndirirdi: *"Hər şey onu deməyə əsas verir ki, zaman keçdikcə, bəlkə də çox tezliklə Soltan Hacıbəyov əsl böyük bəstəkar olacaqdır. Onun istedadı şübhəsizdir, zövqə malikdir, texniki-bəstəkarlıq xüsusiyyətləri göz qabağındadır. Ən başlıcası isə odur ki, Soltan Hacıbəyov öz doğma milli torpağını yaxşı hiss edir".*

[D. X. Danilov. Soltan Hacıbəyov. 1956., səh. 14]

1947-ci ildə Hacıbəyov Moskva Konservatoriyasında rus bəstəkarı Dmitri Şostakoviçin sinfində təcrübə keçmişdir.

[Azərbaycan sovet ensiklopediyası. X cild. 1987-ci il., səh. 147]

1948-1958-ci illərdə Hacıbəyov Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında bədii rəhbər kimi işləmiş, 1955-1962-ci illərdə isə filarmoniyanın direktoru olmuşdur.

[Musiqi ensiklopediyası. 1 cild. 1973-cü il., səh. 871]

[Azərbaycan sovet ensiklopediyası. X cild. 1987-ci il., səh. 147]

1947 (1948) – 1974-cü illərdə Soltan Hacıbəyov, Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) müəllimi, dosenti, professoru (1964\1965) və rektoru (1969) olmuşdur.

[“Bakinski raboçiy” qəzeti. 21.09.1974-cü il., №222 (17139) səh. 3]

[D. X. Danilov. Soltan Hacıbəyov. 1956-cı il., səh. 9]

[Musiqi ensiklopediyası. 1 cild. 1973., səh. 871]

[Azərbaycan sovet ensiklopediyası. X cild. 1987-ci il., səh. 147]

30 dekabr 1950-ci ildə Bakıda, müasir mövzuda ilk Azərbaycan baleti olan Soltan Hacıbəyovun “Gülşən” baletinin premyerası oldu. 1952-ci ildə bu baletə görə Soltan Hacıbəyov SSRİ-nin Dövlət mükafatına layiq görülmüşdür. “Gülşən” baletindən simfonik süita həmçinin ABŞ-da plastinkalara yazılmışdır.

[“Bakinski raboçiy” qəzeti. 21.09.1974-cü il., №222 (17139) səh. 3]

[D. X. Danilov.Soltan Hacıbəyov.1956-cı il., səh. 10]

[E. Abasova. Soltan Hacıbəyov.1965-ci il., səh. 10]

[“Karvan” və Soltan Hacıbəyovun uvertürası. Aydınlaşdırma. 1964-cü il., səh. 7]

Hacıbəyovun “Karvan” simfonik mənzərəsi də ABŞ-da plastinkalara yazılmışdır və Macarıstanda, Yaponiyada, Bolqarıstanda ifa edilmişdir.

[E. Abasova. Soltan Hacıbəyov.1965-ci il., səh. 10]

1953-1968-ci illərdə Hacıbəyov Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibi vəzifəsini tutmuş, 1958-ci (1963) ildən vəfatına qədər (1974) SSRİ Bəstəkarlar İttifaqının İdarə Heyətinin üzvü olmuşdur. 1973-cü ildə Hacıbəyov Azərbaycan Bəstəkarlar İttifaqının katibi seçilmişdir.

[“Bakinski raboçiy” qəzeti. 21.09.1974-cü il., №222 (17139) səh. 3]

[Azərbaycan sovet ensiklopediyası. X cild. 1987-ci il, səh. 147]

1962-ci ilin aprelində Soltan Hacıbəyovun uvertürası ilk dəfə olaraq Çikaqo şəhərində (ABŞ) Boston Simfonik Orkestri tərəfindən, 6-7 noyabr 1962-ci ildə isə Moraviya

Filarmoniyasının orkestri tərəfindən (indiki Çexiya) Çexoslovakiya-Sovet dostluğunun qeyd edilməsi münasibətilə ictimai tədbirlər zamanı ifa edilmişdir.

[“Karvan” və Soltan Hacıbəyovun uvertürası. Aydınlaşdırma.1964-cü il., səh. 24;26]

[E. Abbasova. Soltan Hacıbəyov.1965-ci il., səh. 10;12]

1973-cü ildə Soltan Hacıbəyova SSRİ xalq artisti adı verilmişdir.
Hacıbəyov Bakı şəhər komitəsinin, Azərbaycan Kommunist Partiyası Nəsimi rayon komitəsinin üzvü və Bakı şəhər Xalq deputatları sovetinin deputatı seçilmişdir.

[“Bakinski raboçiy” qəzeti. 21.09.1974-cü il., No 222 (17139) səh. 3]

[Azərbaycan sovet ensiklopediyası. X cild. 1987-ci il., səh. 147]

Soltan Hacıbəyov 19 sentyabr 1974-cü ildə Bakıda qəflətən vəfat etmişdir. O, Bakıda, Birinci Fəxri xiyabanda dəfn edilmişdir.

[“Bakinski raboçiy” qəzeti. 21.09.1974-cü il, No 222 (17139) səh. 3]

[Azərbaycan sovet ensiklopediyası. X cild. 1987-ci il, səh. 147]